# Tovuzda "Heydər Əliyev Müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbir keçirilib

**Tovuz Rayon İcra Hakmiyyətinin, Yeni Azərbaycan Partiyası və Ağsaqqallar Şurası rayon təşkilatlarının birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş "Ümummilli Lider Heydər Əliyev Müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda tədbir keçirilib.**

Tədbiri giriş sözü ilə rayon icra hakimiyyətinin başçısı Məmməd Məmmədov açmışdır. Bildirmişdir ki, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin hüquqi, demokratik və dünyəvi dövlət kimi inkişafının əsasını qoyub: "Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə bu siyasi xətt uğurla davam etdirilir və Konstitusiyanın prinsipləri ölkənin inkişaf strategiyasının əsasını təşkil edir. 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi Konstitusiyamızın qəbul edilməsinin 30-cu və Vətən müharibəsində qələbəmizin 5-ci ildönümünə təsadüf edir. Bu qərar müstəqil Azərbaycanın gücünün, xalqımızın birliyinin və həmrəyliyinin ifadəsidir".

Digər çıxış edənlər də qeyd etmişlər ki, Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması olduqca mühüm və dövlətçilik tariximiz üçün strateji əhəmiyyət kəsb edən hadisədir. Bu qərar yalnız tarixi mərhələlərin qeyd olunması deyil, eyni zamanda milli yaddaşımızın təzələnməsi, hüquqi təfəkkürün möhkəmləndirilməsi və suverenliyimizin gələcək nəsillərə ötürülməsi istiqamətində atılmış mühüm addımdır.

Azərbaycan.- 2025.- 3 may (№89).- S.10.